

90

## *Hörmətli Şəmsəddin müəllim!*

*Sizi 90 illik yubileyiniz münasibəti ilə Akademiyanın kollektivi adından ürəkdən təbrik edir, Sizə uzun, sağlam ömür arzulayırıq.*

*Sizin keçdiyiniz ömür yolu çoxsaylı insanlarımıza bariz nümunə, gənclərimizə isə örnəkdir. Zəhmətsevərliyinizlə qarşınıza qoyduğunuz məqsədə nail olmaq və zirvələrə qalxmaq həmişə Sizin həyatınızın ali məqsədi olmuşdur.*

*Hər bir insanın yubileyi onun dövlət və xalq qarşısında hesabatıdır. Sizin də Azərbaycan dövlətinə və xalqına göstərdiyiniz xidmətlərə görə hesabatınız yüksək qiymətləndirilir.*

*Belə ki, Siz Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdikdən sonra 1956 - 1965-ci illərdə Mədəniyyət Nazirliyində metodist-inspektor, baş metodist, şöbə müdiri vəzifələrində, 1965-ci ildən Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsində məsul katib, komitə sədri, 1969-1981-ci illərdə isə Azərbaycan Həmkarlar İttifaqları Şurasında şöbə müdiri vəzifəsində çalışmısınız.*

*1981-1987-ci illərdə Azərbaycan Milli Kitabxanasının Elmi işlər üzrə direktor müavini, 1988-1991-ci illərdə Mədəniyyət Nazirliyinin Mədəni - Maarif Müəssisələri İdarəsində rəis, 1991-2001-ci illərdə Mədəniyyət nazirinin müavini vəzifələrində işləmisiniz.*

*2005-ci ildən Sizin həyat və fəaliyyətiniz Milli Aviasiya Akademiyası ilə bağlı olmuşdur. Siz Akademiyada Aviasiya Tarixi Muzeyinin fəal qurucularından biri və ilk direktoru olmusunuz. Topladığınız dəyərli materiallar əsasında Azərbaycanda ilk dəfə olaraq Azərbaycan və rus dillərində aviasiya tarixinə dair "Azərbaycanda aviasiyanın tarixi: Biblioqrafiya" adlı fundamental kitab tərtib edilmişdir.*

*Hal-hazırda İctimaiyyətlə əlaqə üzrə prorektor vəzifəsində çalışaraq siz Akademiyanın mədəni, ictimai-siyasi həyatında mühüm rol oynayırsınız. Siz bu gün Akademiyada özünəməxsus layiqli yer tutmaqla professor-müəllim heyəti və tələbələr arasında böyük hörmət və məhəbbət qazanmısınız.*

*Sizin xidmətləriniz dövlətimiz tərəfindən yetərincə qiymətləndirilmiş və Siz "Şərəf nişanı", "Qırmızı əmək bayrağı" ordenləri, "Əla mədəniyyət işçisi" medalı, "Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı" ilə təltif edilmiş, "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüsünüz.*

*Siz, ensiklopedik yaddaşa malik əsl ziyalı, üzü nurlu ağsaqqal, xeyirxah əməlləri ilə ətrafını, çevrəsini daima işıqlandıran təvazökar insansınız. Başqaları haqqında ürəkdolusu danışsanız da, özünüz haqqında susmağı bacarırsınız...*

*Qoy həyatınız ailənizin və dostlarınızın hərarəti və sevgisi ilə, qəlbiniz isə tükənməz enerji və nikbinliklə dolu olsun.*

***Hörmətlə,***
***Milli Aviasiya Akademiyasının kollektivi***

***3 dekabr 2022-ci il***